# Quruculuq əzmi



## İlham Əliyev Qarabağı və Şərqi Zəngəzuru dünya miqyaslı unikal inkişaf məkanına çevirib

"Mən mayın 2-dən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurdayam, bir çox tədbirlər keçirilmişdir, 10 kəndin təməli qoyulmuşdur, bir çox açılışlar həyata keçirilmişdir". Mayın 10-da Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Şuşadan xalqa təbrik müraciətində qürurla bəyan etdiyi kimi, bu gün Qarabağ və Şərqi Zəngəzurda şanlı qələbəmizin parlaq təzahürü olan quruculuq zəfəri yaşanır.

Birbaşa dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında Qarabağ və Şərqi Zəngəzur başdan yaradılır və gün ötdükcə tarixi diyarlarımız abadlıq məkanlarına çevrilir.













### Görülən işlərin təməlində Azərbaycan xalqının maraqları dayanır

1990-cı illərin əvvəllərində yurdlarından zorla didərgin salınan yüzminlərlə vətəndaşımızın həyat şəraitinin yaxşılaşdırılması, problemlərinin həlli istiqamətində mühüm işlər görən dövlətimiz onlar üçün şəhərciklər salıb, 300 mindən çox keçmiş məcburi köçkün yeni evlərlə, mənzillərlə təmin edilib.

Vətən müharibəsindən dərhal sonra isə bu vətəndaşlarımızın öz yurdlarına qaytarılaraq təhlükəsiz və ləyaqətli şəkildə yaşamaları üçün Qarabağ və Şərqi Zəngəzurda dünyada bərabərinə rastlanmayan quruculuq və bərpa işlərinə start verilib. Dövlətimizin əzmi və gücü sayəsində cəmi iki il yarım ərzində bu ərazilərimizdə mühüm layihələr gerçəkləşdirilib, kompleks işlər görülüb.

Bir sözlə, üç onillik ərzində vəhşi düşmən tərəfindən talanan, viran qoyulan yurdlarımızda indi abad şəhərlər, kəndlər salınır, "ağıllı" idarəetmə prinsipləri əsasında infrastruktur yaradılır, Böyük qayıdışa hərtərəfli hazırlıq işləri aparılır.

Artıq Zəngilanın Ağalı kəndi və Tərtərin Talış kəndinin sakinlərinin timsalında Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdışın uğurlu başlanğıcı da qoyulub.

Mayın 10-dakı müraciətində Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqlarının dayandığını vurğulayan ölkə Prezidenti İlham Əliyev söylədi ki, müharibədən cəmi iki il yarım keçəndən sonra keçmiş köçkünlərimizi iki kəndə qaytarmışıq: "Qeyd etdiyim kimi, 10 kəndin bünövrəsi, bax, bu son günlərdə qoyulubdur. Bütün şəhərlərin baş planları tərtib edilib və bütün şəhərlərdə indi genişmiqyaslı inşaat işləri aparılır".

### 10 günün təntənəsi

Zəfərdən sonra geniş quruculuq meydanına çevrilən Qarabağda və Şərqi Zəngəzurda böyük infrastruktur layihələri həyata keçirilir, dəmir yolları, avtomobil yolları, tunellər çəkilir, beynəlxalq hava limanları tikilib istifadəyə verilir, elektrik enerjisi, su təchizatı və digər mühüm işlər görülür. O cümlədən yeni şəhərlərin, kəndlərin, inzibati və yaşayış binalarının təməlləri atılır, açılışları həyata keçirilir.

Tarixi ərazilərimizdə Azərbaycan dövlətinin həyata keçirdiyi bütün bu mühüm işlərlə dövlət başçısı İlham Əliyevin həmin ərazilərə mütəmadi səfərləri zamanı daha yaxından tanış olur, bu yurdlarımızın qısa zamanda necə sürətlə abadlaşdırıldığının, dirçəldildiyinin əyani şahidi oluruq.

Bu ilin may ayında isə düz 10 gün ərzində Qarabağda və Şərqi Zəngəzurda səfərdə olan qurucu lider İlham Əliyevin əzəli yurdlarımızda xeyli sosial obyektlərin açılışlarını etməsi, yenilərinin bünövrələrini qoyması ilə xalq olaraq milli qürur hissi keçirdik.

Mayın 2-də birinci xanım Mehriban Əliyeva ilə birgə Ağdam rayonuna səfər edən Prezident İlham Əliyev Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış oldu, "Azərişıq" ASC-nin Ağdam şəhərində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoydu. Sözügedən tarixdə dövlət başçısı və birinci xanım Ağdam şəhərində tikiləcək inzibati binanın, eləcə də şəhərdə salınacaq 2-ci və 3-cü yaşayış məhəlləsinin, Ağdam Muğam Mərkəzinin bünövrəsini qoydular.

Qarabağdan sonra mayın 4-də yolunu Şərqi Zəngəzurdan salan İlham Əliyev Laçın rayonunun Güləbird kəndinin təməlini qoydu.

Həmin tarixdə Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak edən dövlət başçısı şəhərdə 600 şagirdlik tam orta məktəb binasının, 91 çarpayılıq mərkəzi xəstəxana binasının da bünövrəsini qoydu. Həmçinin bu tarixdə Prezident İlham Əliyev Qubadlının Xanlıq, Mahruzlu, Zilanlı kəndlərinin də təməlini qoydu.

Mayın 4-də Zəngilan rayonunda Zəngilan Konqres Mərkəzinin, "Azərenerji" ASC-nin Zəngilan rayonunda "Sarıqışlaq" Su-Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olan Prezident İlham Əliyev Zəngilan şəhərində inzibati binanın, hotel kompleksinin, Zəngilan Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimlərində iştirak etdi. Dövlət başçısı bu tarixdə həmçinin Zəngilan rayonunun Cahangirbəyli kəndinin, Xudafərin qəsəbəsinin bünövrəsini qoydu.

Əlamətdar hadisələrlə yadda qalacaq bu tarixdə - mayın 4-də ölkə rəhbəri İlham Əliyev Cəbrayıl rayonunda da mühüm açılış etdi. Rayonda 330 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyasını işə salan Prezident "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış oldu, "Holcim Azərbaycan" ASC-nin, "Az-Tex-Import" MMC-nin, "Improtex Qarabağ Sənaye Kompleksi" MMC-nin müəssisələrinin təməllərini qoydu, Cəbrayıl şəhərində inşa edilən akademik Mehdi Mehdizadə adına tam orta məktəbin binasında aparılan tikinti işlərinin gedişi ilə tanış oldu.

Cəbrayıl rayonunun Şükürbəyli və Horovlu kəndlərinin təməlini qoydu.

### Möhtəşəm açılışlar, yeni təməllər

Mayın 5-də də Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birgə işğaldan azad edilən digər yurdlarımızda - Xocavənddə və Füzulidə səfərdə idi. Həmin gün dövlət başçısına və birinci xanıma Tuğ kəndində həyata keçiriləcək turizm layihələri barədə məlumat verildi. İlham Əliyev burada inzibati mərkəzin və ilk yaşayış məhəlləsinin təməlini qoydu.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hadrut qəsəbəsində tam orta məktəbin bərpası layihəsi ilə tanış oldular, ilk yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak etdilər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva inzibati mərkəzin də təməl daşını atdılar.

Həmin gün dövlət başçısı Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 8,2 kilometrlik hissəsinin, Hadrut "Qovşaq" yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin açılışlarını etdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunun Pirəhmədli kəndinin təməlqoyma mərasimində iştirak etdilər. Füzulidə yaşayış kompleksi və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq inşa edilən 960 şagird yerlik məktəb binasında tikinti işlərinin gedişi ilə tanış olan dövlət başçısı Füzuli-Hadrut avtomobil yolunun 12,3 kilometrlik hissəsinin açılışını etdi, Dədəli kəndinin təməlini qoydu.

### Mayın 8-də Şuşada yaşanan qürur

Vurğulayaq ki, Prezident İlham Əliyev mayın 3-də "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda Şuşada təşkil olunan beynəlxalq konfransda iştirak etdi. Qalib liderin yenidən məhz mayın 8-də Zəfər qalamız Şuşaya səfər edərək həmin gün və ondan sonrakı günlərdə bu tarixi şəhərimizdə möhtəşəm açılışlar etməsinin, yeni və əbədi təməllər qoymasının xüsusi rəmzi mənası oldu.

Mayın 8-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanış oldular, həmçinin Daşaltı kəndində Zarıslıçay nasos stansiyasının açılışında iştirak etdilər.

Mayın 9-da ölkə rəhbəri və birinci xanım "Azərişıq" ASC-nin Şuşa Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzinin və Atatürk küçəsinin, Molla Pənah Vaqif və Pənahəli xan küçələrinin kəsişməsində lövhələrin, Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışını etdilər. Dövlət başçımız Qarabağ küçəsində qeyri-yaşayış binasının təməlini qoydu. Qarabağ və Sadıqcan küçələrində, Xüsusi nümayəndəliyin inzibati binasının qarşısındakı meydanda həyata keçiriləcək işlər barədə Prezidentə məlumat verildi.

Prezident Cıdır düzündə Mir Möhsün Nəvvab Qarabağinin Heydər Əliyev Fondu tərəfindən bərpa olunan məzarını ziyarət etdi.

### Doğma yurdda başlanan yeni həyat

Müzəffər Ali Baş Komandan mayın 10-da Ümummilli Lider Heydər Əliyevin 100-cü ildönümündə Şuşada xalqa müraciətindən sonra da ailə üzvləri ilə birgə bir sıra açılış və təməlqoyma mərasimlərində iştirak etdi.

Həmin gün Heydər Əliyev və 8 Noyabr küçələrinin kəsişməsində, Xurşidbanu Natəvan və Zəfər, Qarabağ və Xan Şuşinski küçələrinin kəsişməsindəki lövhələrin, Dəmir yumruq küçəsinin lövhəsinin, Şuşa Hotel-Konqres Mərkəzi Kompleksinin, Yaradıcılıq Mərkəzinin, Yuxarı Gövhər ağa, Saatlı məscidlərinin və Milli Xalça Muzeyinin Şuşa filialının açılışları oldu.

Ölkə rəhbəri həmçinin Şuşada 17 binadan ibarət 2-ci yaşayış kompleksinin təməlini qoydu və 23 binadan ibarət yaşayış kompleksində aparılan, Şuşa şəhərində dövlət xidmətləri mərkəzinin yenidənqurma və təmir işləri ilə tanış oldu. İlham Əliyev Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində burada təşkil edilən "Heydər Əliyev və Qarabağ" fotosərgisi, Gül festivalı və Yuxarı Gövhər ağa məscidinin ərazisində yerləşən mədrəsə binasında "Mir Möhsün Nəvvab Qarabaği - XIX əsrin ensiklopedik alimi" sərgisi ilə də tanış oldu.

Şuşadakı tarixi müraciəti zamanı Prezident İlham Əliyev bəyan etdi ki, on günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görür ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir.

Bəli, birbaşa Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan quruculuq və bərpa işləri ilə bağlı qısa xülasəsini verdiyimiz möhtəşəm işlər də göstərir ki, Qarabağ və Şərqi Zəngəzurda yeni həyat başlayır və çox tezliklə yüzminlərlə keçmiş məcburi köçkün yurda qayıdış xoşbəxtliyini yaşayacaq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***